

# Ekran möcüzəsi - kino

*Ekran əsasən paralel surətdə insan təfəkküründən, şüurundan asılı olmayan, təbiətə və cəmiyyətə dair materiyalaşmış informasiyaları özündə əks etdirir.*

*Kinematoqrafiyanın yaranma tarixi 19 - cu əsrin sonuna təsadüf edir. Elm və texnikanın inkişafı. Bədii axtarışlar. Bu tərəqqi və marağın nəticəsində yaranan kinematoqrafiya adlı yeni bir sahə. Tədricən mühüm və vacib incəsənət növünə çevrilən kinematoqrafiyanın kəşfi. Fəlsəfə, incəsənət aləmində yeni konsepsiyanın yaranması.*

*"Kinematoqraf bir neçə dəfə doğulmuşdur: - əvvəlcə bir texniki kəşf kimi, sonra tamaşa - attraksion kimi, nəhayət özünəməxsus bir dili olan sənət sahəsi kimi".*

Kinematoqrafiyanın meydana gəlməsi isə, sanki bəşəriyyətin gözlənilən mənəvi tələbi və ümumiyyətlə, mədəniyyət tarixinin özünəməxsus qanunauyğunluğu oldu.

Özündə "görünən ədəbiyyat" ("canlı") və hərəkət edən rəngkarlıq ("canlanan rəssamlıq") kimi əsas keyfiyyətləri birləşdirən və eyni zamanda digər yaradıcılıq sahələrini də sintetik şəkildə cəm edən bu sənət növünün, potensial bədii ifadə vasitələri mənada imkanları çox geniş idi.



Bəşəriyyətin özü ilə yaşıd olan bu sənət sahəsi bütün inkişaf mərhələlərinin canlı salnaməçisi kimi keçmişi, bu günü, gələcəyi şifahi xalq ədəbiyyatından tutmuş fantastikaya qədər bir nöqtədə birləşdirə bilir.

Təbiidir ki, buraya dramaturgiya, bədii ədəbiyyat, bədii plastika, musiqi elementləri, aktyor oyunu da daxil idi. Şübhəsiz ki, kinematoqrafiya bütün sadaladığımız incəsənət növlərinin heç birini olduğu kimi təkrar etmirdi. Sadəcə olaraq, istər ədəbiyyat, istər teatr, yaxud məzhəkə elementlərindən istifadə edərək, kinematoqrafiya insan təfəkkürünə, anlayışına, düşüncəsinə daha çox yaxın olan canlı, görümlü, anlamlı bir sənət növü kimi formalaşırdı. Əlbəttə ki, bu təcrübələr və müxtəlif sınaqlar bir-birinə üzvi surətdə bağlanıb, məzmun, ideya bütövlüyü yaradır, nəhayətdə isə, vahid şəkildə ekran təcəssümünü üzə çıxarırdı.

Bütün bu yaradıcı proses, fərdi münasibət, axtarış, sınaq və inkişaf mərhələsi ilə yanaşı ən maraqlısı bir də o idi ki, ildən - ilə baş verən texniki inkişaf kinonun ifadə vasitələrinin təkmilləşməsinə, ifadəliyinə xeyli kömək edirdi. Kinonun səviyyəsi və keyfiyyəti texnikanın inkişafı sayəsində xeyli yaxınlaşır, hansısa xüsusi təkan alırdı. Belə ki, texniki sahədə yeni audio - vizual kommunikasiyanın imkanları bir yenilik kimi nəinki manecələr yaradırdı, hətta əksinə, gözlənilməz şəkildə xeyli irəliləyiş oldu. Kinematoqrafiyanın auditoriyası böyüdü, insanlarla əlaqə vasitələri, yəni sənət dilinin vasitəsi ilə daha da genişləndi. Kino istehsalının yayılması və kütləviliyi, hər cür imkanlarının inkişafı ildən - ilə geniş vüsət aldı, miqyası böyüdü. Və beləliklə, hansısa qısa saniyəlik süjetdən başlanmş tədricən, necə deyərlər, kino bütöv məzmun təşkil edən canlı hissələr, səhnəciklər yaratdı. Artıq ekranda təcəssüm olunan müxtəlif məzmunlu bu səhnəciklərin vahid ideyası, dəqiq süjet xətti oldu. Bir qədərdən sonra isə bu saniyələr dəqiqələrə, yəni ötəri süjetlərdən keçib filmlərə çevrildi. Filmlərin çəkilməsi üçün yaradıcı qruplar əmələ gəldi.

Bu proses 3, 5, 10 dəqiqəlik filmlərin lentə alınması üçün yaranmış çəkiliş qruplarından başladı. Məlumdur ki, nə qədər maraqli olsa da, bu, eyni zamanda çox mürəkkəb məsuliyyət, sürət tələb edən bir prosesdir. Filmin hərtərəfli və kamil alınması üçün çəkiliş qrupuna bir nəfəsə, bir amala çatmaqla işləmək lazım gəlir. Peşəkar dildə desək, "filmin - ideyanın" alınması məqsədinə çatmasında bir nömrəli

yaradıcı və cavabdehli şəxs, qüvvə, şübhəsiz ki, rejissor olur. Əsas yük onun üzərinə düşür. Fəaliyyətə başlayan hər yeni kinorejissor, sözsüz, müəyyən bir mərhələnin təmsilçisidir. Hər ekran əsərinin uğrunda, sənət taleyində rejissorun yaradıcılıq keyfiyyətlərinin rolu danılmazdır. Kino sənətinin yetkinləşməsində, dolğunlaşmasında, sənətin keçəcəyi inkişaf yollarında kinorejissorun yaradıcılıq uğurları özünü daha çox biruzə verir. Rejissor nəinki filmin çəkilib təhvil verilməsinə, həm də əhəmiyyətinə, məqsədinə, məzmununa, estetik ifadə vasitələrinin də rəvan olmasına xüsusi xüsusi fikir verir və özünün fərdi dəsti - xəttini yaradır.



Rejissor həyatdan ayrılmamalı, onun tələbləri ilə yaşamalı, xalqla əlaqəni möhkəmlətməli, gerçəkliyin hər saat, hər saniyə yaratdığı canlı təəssüratları öz varlığına hopdurmalıdır. Rejissor film üzərində işlərkən hər hansı bir ssenarini diqqətlə oxumalı, onun haqqında ətraflı düşünməlidir. Rejissor onu əsl mənada cəlb etməyən işdən yapışmamalıdır. Rejissor bütöv məzmun və ideyanın alınması üçün əvvəlcədən yazılmış ədəbi ssenaridən əlavə, təqdim olunan əsərə öz həllini, gələcək nümayişi və görümü üçün yeni rejissor ssenarisini yazır. Bəlkə də çox adama tanış, bəlli olan mövzunu o, özünün şəxsi yaradıcı baxımından aydın aspektdə görür.

O, əlindəki materialın məzmunu ilə formasını - görümünü ( ssenari, operator işi, aktyor oyunu, əldə olan süjet materialının təsviri həllini) , yəni əsl kino dilini, kino təqdimini bütün komponentləri ilə vəhdət şəkildə həll edir. Reportaj manerası tələb olunan filmin müşahidə yolu ilə çəkilməsi ekskursiya ovqatı yaradır. Yol gedən yolçuları fraqmentlərlə müşahidə edən kinokamera hadisələrin məğzinə varmır. Operator bəzən obyektivin qabağına budaq və ya gül qoyaraq kadrı gözəlləşdirməyə çalışır. Kino çəkilişində gözəlliyi görmək bacarığı rejissorda yüksək olmalıdır. Bütün bunları görmək üçün susmaq, diqqət kəsilmək lazımdır. Belə kadrların çəkilişi və musiqi həlli barədə düşünmək rejissoru daha çox özünə cəlb edir.

Rəssam peyzajların, natürmortların, sakit əşyaların çəkilişini həll etsə də, bəzən istədiyini çəkiliş vaxtı tam görə bilmir.

Aktyorla işlərkən kinonun tələblərinə uyğun rejissor bəzi anlarda pauzaya daha çox yer verir, elə vaxt olur ki, pauzanı sakit və ya musiqinin köməyi ilə həyata keçirir. Belə anları ən çox aktyor oyunu öz məharəti ilə tamaşaçıya tam, dolğun çatdırır.

Ümümiyyətlə, unutmaq lazım deyil ki, kinematoqrafiyada rejissorun işini - filmi başdan - ayağa obraza, musiqiyə, rəssamlığa bölən, səmərəli istifadə edən yalnız rejissor, onun şəxsi baxımı və fərdi münasibəti, zövqü olur. Kino sahəsində rejissor əsas qüvvə olaraq, ideya - bədii fikri kinonun digər komponentləri ilə üzvi surətdə birləşdirib (ssenari, operator işi, aktyor oyunu, süjet materialının təsviri həlli və bəzi labüd köməkçi vasitələri) tamamlanmış məqsəd əldə edə bilir, yəni film çəkilib.

***Kinematoqrafiyada rejissorun işinin yekunu obraza çevrilmiş filmlə tamaşaçıya sözünü demək, öz fərdi düşüncəsini, ideyasını çatdırmaqdır. Fərdi yaradıcı baxış, həll isə bu sahədə xüsusi məna kəsb edir və həm də fərqlənir.***

***Ramiz İSMAYILOV,***

***Azərbaycan Televiziyasının Uşaq, gənclik və idman redaksiyasının baş rejissoru***

**İstifadə olunmuş ədəbiyyat:**

1. **B.Y.Zaxava. "Aktyor və rejissor sənəti". Bakı. "Maarif" nəşriyyatı. 1984**
2. **A.Ə. Dadaşov. "Gerçəkliyin astanasında". Bakı. "İşıq" nəşriyyatı. 1992**
3. **N.B.Sadıqov. "Azərbaycan kino rejissorları". Bakı. "İşıq" nəşriyyatı. 1988**